# 3RD INTERNATIONAL AZERBAIJAN CONGRESS ON HUMANITIES AND SOCIAL SCIENCES

## NOVEMBER 26-28, 2022

## CONGRESS PROCEEDINGS BOOK

ISBN: 978-605-72169-1-5



EDITORS

PROF. DR. AMELIE CHICO
ASSOC. PROF. DR. NAZILE ABULLAZADA
DR. MUHAMMAD SAFDAR BHATTI

BZT ACADEMY

ALGERIA, AUSTRIA, AZERBAIJAN, BANGLADESH, CANADA, CHINA, INDIA, INDONESIA, KOSOVO, LITHUANIA, LIBYA, MOROCCO, NIGERIA, NORTH MACEDONIA PAKISTAN, PHILIPPINES, POLAND, PORTUGAL, SPAIN, TÜRKIYE, UZBEKISTAN

# 3RD INTERNATIONAL AZERBAIJAN CONGRESS ON HUMANITIES AND SOCIAL SCIENCES

NOVEMBER 26-28, 2022

(ONLINE & FACE TO FACE PARTICIPATION)

ISBN: 978-605-72169-1-5

EDITORS

PROF. DR. AMELIE CHICO
ASSOC. PROF. DR. NAZILE ABULLAZADA
DR. MUHAMMAD SAFDAR BHATTI

BZT AKADEMİ YAYINEVİ®
BZT ACADEMY PUBLISHING HOUSE 2021©

TURKEY, GERMANY
TR: +90543 671 0123 GR: +491774586777

BZT
ACADEMY

# 3RD INTERNATIONAL AZERBAIJAN CONGRESS ON HUMANITIES AND SOCIAL SCIENCES

**NOVEMBER 26-28, 2022**

**ONLINE & IN-PERSON PARTICIPATION**

**BAKU, AZERBAIJAN**

# CONGRESS PROCEEDINGS BOOK

## EDITORS

**PROF. AMELIE L. CHICO**

**ASSOC. PROF. DR. NAZILE ABDULLAZADA**

**DR. MUHAMMAD SAFDAR BHATTI**

**BZT AKADEMİ YAYINEVİ®**

TURKEY, GERMANY

TR: +90543 671 0123 GR: +491774586777

azerbaijancongress2022@gmail.com

https://www.azerbaijancongress2022.com/

All rights reserved

**BZT AKADEMİ YAYINEVİ®**

**BZT ACADEMY PUBLISHING HOUSE 2021©**

**Publishing Date: 06.12.2022**

**ISBN: 978-605-72169-1-5**

# ARİF HÜSEYNOV YARADICILIĞINDA "AĞDAMA İTHAF" TRİPTİXİ (İKONOQRAFİK TƏHLİL KONTEKSTİNDƏ)

**Emil Raul oğlu Ağayev**

Teacher of the subject combination commission "Art and physical education" of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University

ORCID NO: 0000-0001-9354-0839

## ÖZET

Azərbaycan incəsənəti tarixin bütün mərhələlərində baş verən prosesləri özündə əks etdirir. 2020-ci il 27 sentyabr tarixində Azərbaycan ordusu ermənistanın növbəti dəfə atəşkəsi pozması nəticəsində öz ərazi bütövlüyünü qorumaq üçün mübarizəyə qalxdı. 44 gün ərzində qəhrəmanlıq göstərən Azərbaycan ordusu 8 noyabrda mədəniyyət paytaxtımız Şuşada üçrəngli bayrağımızı ucaldaraq Zəfər qazandı. 23 iyul 1993-cü ildə ermənistan ordusu tərəfindən işğal edilən Ağdam, 2020-ci il 20 noyabr tarixində Azərbaycan, Rusiya və ermənistan arasında bağlanılan müqaviləyə əsasən müharibəsiz geri qaytarılır. Azərbaycan təsviri sənətinin görkəmli rəssamlarının yaradıcılığında Zəfər mövzusu leytmotiv təşkil edir. Bu məqalədə Arif Hüseynov yaradıcılığında "Ağdama ithaf" triptixi sənətşünaslıq kontekstində təhlil edilmişdir.

**Açar sözlər:** Azərbaycan,Zəfər, Qarabağ, Ağdam, Arif Hüseynov

## TRIPTYCH "DEDICATION TO AGDAM" IN THE WORKS OF ARIF HUSEYNOV (IN THE CONTEXT OF ICONOGRAPHIC ANALYSIS)

## ABSTRACT

Azerbaijani art reflects the processes occurring at all stages of history. On September 27, 2020, the Azerbaijani army fought to protect its territorial integrity as a result of Armenia's violation of the ceasefire again. The Azerbaijani army, who showed heroism for 44 days, won victory by raising our tricolor flag in our cultural capital Shusha on November 8. Agdam, which was occupied by the Armenian army on July 23, 1993, was returned without a war according to the agreement signed between Azerbaijan, Russia and Armenia on November 20, 2020. The theme of Victory is a leitmotif in the works of outstanding artists of Azerbaijani fine art. In this article, the triptych "Dedication to Aghdam" created by Arif Huseynov is analyzed in the context of art criticism. .

**Keywords:** Azerbaijan, Victory, Karabakh, Agdam, Arif Huseynov

## GİRİŞ

Azərbaycan incəsənəti tarixin bütün mərhələlərində baş verən prosesləri özündə əks etdirir. 90-cı illərdə xalqımızın başına gətitilmiş Qarabağ faciəsi incəsənətimizdə 30 il ərzində yaşadılırdı. 2020-ci il 27 sentyabr tarixində Azərbaycan ordusu ermənistanın növbəti dəfə atəşkəsi pozması nəticəsində öz ərazi bütövlüyünü qorumaq üçün mübarizəyə qalxdı. 44 gün ərzində qəhrəmanlıq göstərən Azərbaycan ordusu 8 noyabrda mədəniyyət paytaxtımız Şuşada üçrəngli bayrağımızı ucaldaraq Zəfər qazandı. Qazanılan tarixi uğur incəsənət sahəsində çalışan sənətkarların çoxdan gözlədikləri bir arzunun gerçəkləşməsi idi. Azərbaycan təsviri sənətinin görkəmli rəssamlarının yaradıcılığında Zəfər mövzusu leytmotiv təşkil edir. Kompozisiyalarda yaratdıqları obraz daha təsirli rəng, xətt, plastika vasitəsilə vurğulanır. Xalq rəssamı Arif Hüseynov da vətənpərvərlik mövqeyi ilə daima seçilən sənətkarlardandır. Onun yaradıcılığında “Qarabağnamə”, ”Şuşanın görkəmli sənətkarları” silsilələri tarixi, estetik baxışların dolğun formada təqdim edilməsi baxımından əhəmiyyətli mövqe tutur.

## MÖVZUNUN İŞLƏNMƏ DƏRƏCƏSİ

23 iyul 1993-cü ildə ermənistan ordusu tərəfindən işğal edilən Ağdam, 2020-ci il 20 noyabr tarixində Azərbaycan, Rusiya və ermənistan arasında bağlanılan müqaviləyə əsasən müharibəsiz geri qaytarılır. Ağdam şəhəri 30 il ərzində dağıdılaraq görkəmli əzəmətini itirdi. Arif Hüseynov yaradıcılığında “Qafqazın Hiroşiması” adlandırılan şəhərin obrazını təsirli rəng qamması ilə izləyə bilərik.

“Ağdama ithaf” triptixi 2021-ci ildə işğaldan azad edilən şəhərin dağıdılmış Dram teatrının qalıqlarının qarşısında təqdimat mərasimi keçirilmişdi.Əsas ideya xeyir və şər qüvvələrin apardığı mübarizə, tarixi torpağımızın başına gətirilən fəlakətlər hər bir Azərbaycan vətəndaşında kədər hissi oyadır. Triptixin hər bir hissəsi tarixdir. Rəssamın mövqeyi ardıcıllığı ilə seçilən silsilədə mədəni, tarixi irsimizi silməyə çalışan ermənistanın insanlığa yaraşmayan simasını ifşa edir. Xalq rəssamı triptixdə tarixi faktlara əsaslanır, 2021-ci ildə kətan üzərində, akril texnikası ilə yerinə yetirilmişdi.

Triptixin sağ hissəsində Ağdamın simvolik Şahbulaq qalası təsvir olunmuşdu. Tarixçilərin məlumatına görə Qarabağ xanlığının banisi Pənahəli xan Ağdam şəhərinin 10 kilometrliyində “Şahbulaq” adı ilə məşhur olan bulağın yanında bir qəsr kompleksi saldırmış, daş və əhəngdən məscidlər, evlər, bazar tikdirmişdir. Qala öz adını gursulu bulağın adından almışdır. Elmi ədəbiyyatda daha çox Şahbulaq adı ilə tanınan abidə iri qəsr kompleksinin içqalası olmuşdur. Şahbulaq qəsri Azərbaycan xanlıqlar dövrü hərbi memarlığının sadə nümunələrindən biridir. Şahbulaq tikililəri Qarabağ xanlığının, xüsusilə onun paytaxtı olmuş Şuşa şəhərinin memarlığına öz təsirini göstərmişdir. Rəssamın yaradıcılığına xas olan nağılvarilik əsərə yeni bir nəfəs gətirir. Pənahəli xan və döyüşçülərinin ay üzərində təsviri, ruhlarının azadlıq obrazıdır.



**İll 1. A.Hüseynov "Ağdama ithaf" triptix "Şahbulaq qalası" (2021) (kətan, akril, 60x90 sm)**

Mərkəzi hissədə Ağdam teatrının məhvi, səhnədə "Leyli və Məcnun", "Otello" və "Don Kixot" tamaşalarını oynayan obrazlar səhnədə şər qüvvələr tərəfindən öldürülür. Qara qüvvələr ermənistanın Ağdamı işğal etdikdən sonra buranın məşhur dram teatrını məhv etməsidir. Xarabalığa qalan teatr arxa fonda təqdim edilmişdi.



**İll 2. A.Hüseynov "Ağdama ithaf" triptix "Ağdam teatrının məhvi" (2021) (kətan, akril, 120x90 sm)**

Triptixdə Ağdam Cümə məscidinin təsviri islam dini ənənələrinin qorunması və yenidən azad edilən şəhərdə bərpa edilməsidir. Bölgədə mühüm ticarət mərkəzinə çevrildiyi zaman şəhərdə Qarabağın XIX əsr dini memarlığının örnəklərindən biri inşa edilmişdir. Ağdamda cümə məscidi olan bu abidəni 1868-1870-ci illərdə bu dövr Qarabağ memarlığının aparıcı sənətkarı memar Kərbəlayi Səfixan Qarabaği ucaltmışdır. Memar orta əsr Azərbaycan memarlığında geniş yayılmış qoşa minarəli Cümə məscidləri ənənəsini davam etdirərək Ağdam məscidində öz dövrün tələblərinə və Qarabağın memarlıq-inşaat təcrübəsinə uyğun məscid obrazı yaratmışdır. Arif Hüseynov kompozisiyada azan səsinin sədaları altında dağıdılan məscidi öz əlləri ilə qoruyub saxlayan şəhidlərin obrazı təqdim edilmişdi.



**İll 3. A.Hüseynov "Ağdama ithaf" triptix "Ağdam.Cümə məscidi" (2021) (kətan, akril, 60x90 sm)**

## Nəticə

Arif Hüseynov yaradıcılığında "Ağdama ithaf" triptixi (ikonoqrafik təhlil kontekstində) məqaləsinin əsas nəticələri aşağıdakılardır:

-"Ağdama ithaf" triptixi sənətşünaslıq kontekstində təhlil edilmişdi

-Əsərin təhlilində ikonoqrafik təhlil metodunun tarixilik, təsviri sənətin obraz prinsiplərindən istifadə edilmişdir

-"Ağdama ithaf " triptixi müasir Azərbaycan təsviri sənətində mühüm yer tutur.

Qarabağ işğaldan azad ediləndən sonra yenidən qurularaq dünya ölkələrinə nümunə olacaqdır...

## Ədəbiyyat siyahısı:

1.Ağayev E. " Xalq rəssamı Arif Hüseynov yaradıcılığında Qarabağ memarlığı// "II beynəlxalq elm və texnologiya konfransı"//26-27 noyabr 2021// Bakı Mühəndislik Universiteti// s 3-5

2. Əliyev Z. "Qarabağnamə-tarixin səhifələri"// Mədəniyyət 2019// s 7

3. https://az.wikipedia.org/wiki/%C5%9Eahbulaq_qalas%C4%B1

4. https://az.wikipedia.org/wiki/A%C4%9Fdam